# Bir gün məni axtarsan...

**QƏNDAB**



## Şeir

Şeir - qönçəsidir açan güllərin,
Şeir - nəğməsidir tuti dillərin,
Şeir - bəhrəsidir sevən ürəyin,
Sevgimin meyvəsi, barıdır şeir!

Həsrətli gözlərlə dolar, ağlayar,
Ürəklər güləndə toy-büsat qurar!
Payızla payızdır, baharla bahar,
Qışın sazağıdır, qarıdır şeir!

Hansısa mələyin bəlkə əlidir,
Üzən ayağını yerdən adamın!
Baxmakı havalı, bir az dəlidir,
Ən kasıb ürəyin varıdır şeir!

Canım tək onunla təsəlli tapar,
Məlhəm olmayanda Yar da yarama!
Şeirlə sən məni qəbirə apar,
Könlümün dildarı, Yarıdır şeir!

Ruhum çırpınar can qəfəsində,
Sinəmdə boğular, sanki səsim də,
Dadıma yetişər son nəfəsimdə,
Mənimçün həyatla yarıdır şeir!

## Kiminkidir o ürək?

Kiminkidir o ürək,
Tutmusan əllərində?!
Həm necə də ürəksiz,
Həm necə də ürəklə!
Mən sevgimdən ölsəm də,
Sevməyi bilməsəm də,
O ki, daha döyünmür
Parçalanmış sinəmdə!

Kiminkidir o ürək,
Buz kimi somsoyuqdu,
Güllələnmiş divar tək,
Dəlik-dəlik, oyuqdu!
Damağındakı dadın,
Qoy damağında qalsın,
Səni sevən ürəyi,
Kim sevirsə, o alsın!

Kiminkidir o ürək,
Sinəndə gəzdirdiyin
Ürəyinə tay kimi,
Əlinə göydən düşən,
Nemət kimi, pay kimi
Tutmusan əllərində?!
Sən onu çox sevsən də,
Sən onu sevməsən də,
O bunu bilməyəcək,
İllərlə sevdiyi tək
Bir daha sevməyəcək!

Kiminkidir o ürək,
Tutmusan əllərində,
Necə də qorxa-qorxa,
Necə də ürkə-ürkə?!
O isə heç qorxmadı,
Eşq üçün can verəndə!
Nəfəsinlə dirildib,
İndi cansız ürəyi,
Yerə qoyub gedirsən,
Hara qoyub gedirsən?!

## Barış

Yüyürürük -
Sən o yandan,
Mən bu yandan,
Aramızda uçur zaman...
Biz zamanla yarışırıq!
Qorxa-qorxa yanılmaqdan,
Qorxa-qorxa danılmaqdan,
Biz hər şeyə, alışırıq!
Gecə qara, cücə qara.
Qaranlıqda görünməyir
Nə yarımcan, nə də yara...
Qaranlığa qarışırıq!
Sən sevirsən məni son kəs,
Susur ürək, susur aləm,
Yox oluruq...
Yoxluqla da barışırıq!

## Bir gün...

Bir gün məni axtaracaqsan, eynilə mənim Səni axtardığım kimi! Ciyərlərin yana-yana, ürəyin əsə-əsə, dizlərin titrəyə-titrəyə... Çağıracaqsan məni, adım dilinə gəlməyəcək, çığıracaqsan, səsin çıxmayacaq! Bir gün Sənə etdiklərimi mənə bağışlayacaqsan, bir gün mənə etdiklərindən peşiman olacaqsan, məni axtaracaqsan... Gözlərində gözlərimin baxdığı - heç kəsin görmədiyi, heç kəsin duymadığı yerlərdə sürünə-sürünə, iməkləyə-iməkləyə axtaracaqsan məni...Yerimi bilsən də açıq qapımı açmağa gücün catmayacaq... Axtaracaqsan, axtaracaqsan... tapmayanda özünü aldadacaqsan: - "Heç mən onu sevmirdim ki!" - deyəcəksən. Təsəlli üçün bu sözləri o qədər deyəcəksən ki, dediyin yalana inanacaqsan... Və bir gün məni unudacaqsan! Unudacaqsan... Lakin bir gün qara buludların arxasından günəş sıyrılıb çıxar kimi, tumurcuqlardan qöncə çiçəklər qəflətən partaqlanıb açar kimi boy göstərəcəm qəlbinin dərinliklərindən... Öncə heyrətlənəcəksən: - "Mənki onu unutmuşdum!" - deyəcəksən. Sonra isə... Sonra isə: - "ALLAH verəni, ancaq ALLAH alar!" - deyəcəksən. Çarəsizcə qədərinə boyun əyəcəksən! "Hər kəsdən çox mənimsən, sevdiyim!" - pıçıldayacaqsan. Mənsiz mənlə yaşayacaqsan ta ölənə kimi! Kimsəyə anlada bilməyəcəksən Səni, məni... Kimsəyə anlada bilməyəcəksən nə istədiyini... Əlacsız qalacaqsan, eynilə mənim kimi!..

## Sən də bilirsən!..

Bilirəm, Sən də bilirsən, ruh əkizi olduğumuzu... Eyni küsüb eyni barışdığımızı, eyni sevib eyni alışdığımızı! Sən də bilirsən!..

Mən, "Qadın özünə baxmalıdır." - deyərkən Sənin gözlərinə baxanda, o anlarda həyəcandan özünü tavana çırpan ruhum qulağına əyilib: - "Mən dünyanın ən təmiz, zövqlü qadınıyam" - pıçıldasa da, Sən mənim əl dırnaqlarımdakı səbirsizlikdən qurumağa qoymadığım lakın (dırnaq boyasının) pozulmuş, kələ-kötür izlərinə baxırdın... Get-gedə solan gözəlliyimlə, azalan sürətimlə, ürəyim Sənə, ayaqlarım isə geriyə gedəndə Səni xəbərdar edirəm: - "Sən o qədər həssas, titiz, ağıllısan ki, Səninlə danışan qadın ya gərək şeirlə danışsın, ya gərək də özü şeir, musiqi kimi gözəl olsun!" - deyir, ruhumun qulağıma pıçıldadıqlarını dilimə gətirirəm, sonra... Tələsə-tələsə Sənə günlərlə, aylarla şeirlər yazıram!..

Və bir gün səbrin daşdı, məndən elə küsdün ki, qəzəbindən od püskürdü dodaqların: - "Sənə nifrət edirəm!" - yerinə, - "Səni sevmirəm!" - dedin...

Mən isə elə hey yazırdım...

Və bir gün səbrim daşdı, ürəyim sızlaya-sızlaya: - "İnan, Səndən heç nə istəmirəm!" - dedim...

Hər an barışmaq istəsək də, bir daha barışana bənzəmirik deyilmi?! Səbrlə bizi ayıran məkannın ölçülərini dəyişəcəyi zamanı gözləyirik, o, dəyişəndə mütləq qovuşacağıq! Bilirəm, bunu Sən də bilirsən!..

## Gerçək Xəyal

Ayaqları torpaqdan üzülən də, sevməyin, sevinməyin sevincindən quş kimi göylərə uçan da, hər an həsrətlə yollunu gözləyən gözləri maviliyi Xəzərin maviliyinə qarışan göyüzündə başdan-başa Səni görən də, kədərindən yerlərdə yeksan olan da, mən idim.Və bunları elə dolu-dolu yaşayırdım ki... Hər dəfə güləndə nə vaxtsa bir də ağlayacağıma, öləndə bir də diriləcəyimə heç inanmazdım, bu sondu deyərdim... Mən necə dəyişərdim, lap hava kimi! Sən isə həmişə bir idin - daş kimi, soyuq, səbirli, tərpənməz! İndi çönüb arxaya baxanda Səni görmürəm, çünki yoxsan, Sən bir Xəyalsan! Səni yalnız irəliyə baxanda görürəm...

## Qədər məhkumu

Atalar deyib: "Sən saydığını say, gör fələk nə sayar". Mən də sayıram: Bir, iki, üç, dörd, beş, altı, yeddi... 1-ci gün: Düşünürəm... Hər ömür bir kitabdır; kimiləri yazar gedər, kimiləri yazmadan! 2-ci gün: Tələsə-tələsə sevdiyimə bir mesaj göndərirəm: "Mənə kömək edərsənmi, ömrümü yazmaq istəyirəm?!." 3-cü gün: Bir sözdən ibarət cavab mesajı gəlir: "Yaz". 4-cü gün: Dünya mənimdir; bitibtükənməyən mürəkkəb bazam var!.. 5-ci gün: Geçə-gündüz ağıllı telefonuma sarılıb yazıram!.. 6-gün: Aradan yeddi il keçir... Ağıllı telefonumun "Notlar" proqramında ömrümü yazıb qurtarıram, kitab hazırdır! 7-ci gün: Sevinə-sevinə yazdıqlarımı son dəfə korrektura etmək üçün telefonun ana düyməsini sıxıram. Bir barmaqla "Notlar"a toxunuram... və titrəşən xırda plyusları yalnız bundan sonra fərq edirəm... Olan olur... Bir göz qırpımında əlli ilimi geri dönüşsüz silirəm! Telefonum "İphone"dur, iCloud'a da yüklənmədən silinən proqramları geri qayıtarmaq olmur! Sarsılıram... Həftə səkkiz yox, yeddi gün, əlimdə qalan isə saymadığım sıfır olur!

## Asılan adam

Mən anımı gözləyirəm,
Quzu kimi...
O da baş alıb gedir,
Götürür məni bu taydan
o taya!..
Anımı yaşayıram...
Gah beşikdə,
Gah da, balaca bir deşikdə!
Nə qədər ağır olsam,
yük deyiləm!
Nə qədər yüngül olsam,
boş deyiləm!
Elə buna görə də -
Yoox, yoox! - deyirəm.
Anım məni sıxır, sıxır,
Gözüm kəlləmə çıxır!..
Çoxdan düşüb izimə,
Çovqunlu, qarlı sazaqda
Ləpirləri iyləyən
ac qurd kimi!..
Boz atımı minirəm,
Surrəm Şirvan yoluna!
O da çırpır məni
yerdən-yerə, göydən-göyə!
Bilməyirəm?!
Mənmi onun culuyam,
Omu mənim köhlənim?!.
Kim bilirsə o desin,
Mən də ona köklənim!
Kim görürsə o gəlsin!
Alsın anımı bu anımdan,
Alsın canımı bu canımdan,
Çəksin məni bu görünməz yolumdan!..
Tutub qolumdan
atsın bir bəy babanın ocağının küncünə!
Ya da,
Anamın ayaqları ucunda
Bir yer açım özümə!
Baxa-baxa gözünə,
Qulaq asım sözünə!
Ölümü güdə-güdə,
Yapışım ovuc-ovuc yediyi
qara torpağın yaxasından!..
* * *

## O yoxdu

Sən O deyilsən!
Mən "O"nu sevdim,
Tanrı səni qoydu onun yerinə!
"O"nunla ilk görüşümü
Sənə həsr eylədim,
Səni bütün günü gözlədim,
Bilmədin, gəlmədin!
Mən sənin yolunda "O"nu gözlədim
hər gün!
O gəldi...
Ayaqlarım tutuldu,
Qolum bağlandı!
Yollarınlz yarışdı,
Fırtınalar qopdu, aləm qarışdı...
Mən sənin yolunda "O"nu itirdim!
Tanrının "günahsız" qulları əlində
Tanrının günah keçisi oldum!
Qova-qova
Sıxdılar məni sənə!
Sarıdılar məni sənə!
İndi nə açan var, nə qaçan
Sənin qolunda sarıqda qalmışam,
Sənin yolunda sırıqda qalmışam!
O isə hələ yolum gözləyir...

## Mən Qədərə inanıram

Nə ona, nə sənə, nə də özümə inanmıram, yalnız qədərə inanıram...

Nəticə – bir hadisənin sonudur, hadisə mənim, sənin, onun düşüncə və hərəkətinin sonudur. Hər bir hərəkət hərəkəti edənə görə o an üçün ən doğru olandır... Və bu doğruların kəsişdiyi və ya birləşdiyi an gəlir, olan olur... Qədər də elə budur... Bu anlar, olanlar... Olan olmuş, olan olur və olacaq olacaqdır! Mən Qədərə inanıram! Nə özümə, nə sənə, nə də ona inanmıram!

## Sevgi yağışı

Hara baxırdımsa hər yerdə sevgi görürdüm... Ucu-bucağı görünməyən göylərdən sevgi yağırdı... Bir-birinə sarı əyilən ağacların bir-birlərinə sarmaşan budaqlarının titrəşən yarpaqlarından süzülən sevgi seli ılıq bir aydınlıqla masmavi göyüzünə yayılıb, sonra da nəhəng bir Ana kimi bütün aləmə qucaq açan torpağa ələnərək onun dərinliklərinə işlədikcə, nəhayətsiz bir sevgi dənizində bəxtəvər-bəxtəvər sallanan kainat da, gördüyüm bu gözəlliklərin mühtəşəm ahəngini yaradan güc və qüdrətin dərkiylə mənə sonsuz bir xoşbəxtlik yaşadan idrakım da, ruhumun get-gəllərində dolub-boşalan könlüm də Səninkidir, ALLAHIM! SƏN qəlbimi eşq ilə doldurdun, mənə sevdiyimi verdin, Sevdiyim isə məni SƏNƏ göndərdi!

## Bu günü unutma

Xəyalını dəfn etdim bu gün. Qəlbimin ən dərinində, yanğınlarımın külündə! Həyatımın ən acı gerçəyini, ilk və son yalanını da dəfn etdim bu xəyalla birlikdə! Sən heç dinib-danışmadın, gözlərin gözlərimə baxa-baxa, gözü açıq basdırdım Səni! Ancaq gözlərində gizli bir ümid vardı: bir gün yenə zəng edər ya qapını açar, ya da bir şeir hədiyyə edərəm, deyə! Dodaqlarında xəfif bir təbəssüm vardı, sevincli idin... Heyrət!.. Səni heç gülən görməmişdim! Nəyə gülümsəyirdin, nəyə sevinirdin?!. Qeyri-ixtiyari mən də gülümsəyirəm.Yaxınlaşıb yanağıma axan yaşı silə-silə anlamadığım anamlı bir baxışla gözlərimin içinə baxıb təkrar-təkrar: -"Bu günü unutma! Bu günü unutma! - deyən kişi Sən deyildin, ancaq bu günü unutmamaq üçün bu gündən unutmalı olacağım kişi Sən idin!..

## Sənə sözüm var

Artıq mən o mən deyiləm, qorxma, ürəkli ol!! Nə doqquz yaşlı qoca, nə doxsan yaşlı uşağam!.. Əngin, işıqlı səmalardan enərkən uca, yamyaşıl sərv ağacının budaqlarına ilişən bir alyansdan, qaranlıq dərinliklərdən çıxarkən qurumuş bir çayır kökündən yapışıb ortalarda duramağa çalışan biriyəm! Ayağını ilk kəs yer üzünə basan və basdığı yerlərdə izləri ilə oynayan biriyəm! Küsməyən, inciməyən, gülməyən, sevinməyən, sevməyən, sevilməyən, bəzən yaşayan bir ölü, bəzən də çoxdan ölmüş diriyəm! İndi eşqim – bir qığılcımdan doğan atəş, bir qönçədən açan çiçək kimidir! Bir anlıq yanar-sönər, bir anda açar-solar! Qorxma məndən! Əbədi olan sevgidir, mən deyiləm! Məni itirməkdən qorxmadığın kimi, mənə qovuşmaqdan da qorxma! Nə ayrılaq, nə qovuşaq, bircə kərə görüşək, deyirəm!..

## Bir yağış yağsa!

Bir yağış yağsa, yuyular tozlu yarpaqlar,
Parlardı üfüqlərdə qaralan buludlar!
Bir yağış yağsa, su içər susuz torpaqlar,
Dənizlər dincələr, rahatlığa yol tapar!
Bir yağış yağsa narın-narın uz-gözümə,
İslatsa paltarımı, işləsə iliyimə,
Qarışardım yağışa!
Yağardım uzaqlara, lap uzaqlara...
Sarılardım yağış sularında yalın ayaq,
çıl-çılpaq qaçan uşağın tombul ayaqlarına!
Yağardım yumulu gözlərinə,
Göylərə açılan balaca əllərinə,
Bir də tez-tez döyünən, isti ürəyinə.

2019